


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 80 (23.967)

*30 aprel 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb. Təbrikdə deyilir: “Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynamışdır. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, haqq işi uğrunda mübarizədə qazandığımız şanlı Zəfərlə azad edilmiş dədə-baba yurdlarımızda həyat yenidən dirçəldilir, tarixi-mədəni irsimiz, ibadət yerlərimiz bərpa olunur, məscidlərimizdən azan sədaları yüksəlir.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman şəhidlərimizin ölməz xatirəsini bu mübarək bayram günlərində bir daha ehtiramla yad edir, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə cansağlığı diləyirəm”.

***

Prezident İlham Əliyev aprelin 29-da ADA Universitetində “Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti aprel ayının ikinci 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2022-ci il 18 aprel tarixli Qərarı ilə “Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzinə aylıq müavinətin təyin edilməsi və ödənilməsi Qaydası”nda və müavinətin ödənilməsi barədə müqavilə formasında dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli Qərarı ilə “Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydaları”nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən 2022-ci il mayın 1-dən etibarən Naxçıvan Beynəlxalq Hava Limanı ərazisində və uçuş zamanı tibbi maskalardan istifadə artıq məcburi xarakter daşımır, yalnız tövsiyə edilir.

Eyni zamanda “Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” statusun verilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli Qərarının icrasının təmin edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2022-ci il 27 aprel tarixində Sərəncam imzalayıb. Sərəncama əsasən “Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların “akademik” və “milli” statuslarına təqdim olunması Qaydası”na uyğun olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının işçilərinin vahid tarif cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə maaşlarına 50 faiz məbləğində əlavənin verilməsi həyata keçiriləcəkdir.

Bundan başqa, Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarına əsasən “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə edilmiş dəyişikliyə görə Dövlət məktəbəqədər təhsil müəssisəsinin Nizamnaməsi və onda edilmiş dəyişikliklər mərkəzi və ya yerli icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilirdisə, bundan sonra yalnız mərkəzi icra hakimiyyəti orqanı tərəfindən həyata keçiriləcəkdir. Məlumat üçün qeyd edək ki, bu funksiya Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən aparılacaqdır.

Həmçinin Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli Qərarı ilə “Mədəni sərvətlərin idxalı, ixracı və Naxçıvan Muxtar Respublikasından tranzitlə keçirilməsi Qaydası”nda dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə əsasən mədəni sərvətlərin idxalı və ixracı zamanı şəhadətnamənin verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun ödənilməsi nəzərdə tutulmuşdur.

Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası”nda da dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən işsiz kimi qeydiyyata alınmış şəxslərə minimum sığorta ödənişinin təyin olunması üçün ən azı 35 ay sığorta stajına malik olma tələbinin, 30 ay ilə əvəz edilməsi nəzərdə tutulur. Belə ki, artıq sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki ardıcıl gələn 36 təqvim ayı ərzində müddətli əmək müqaviləsi üzrə ən azı 30 ay sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə minimum sığorta ödənişi təyin ediləcəkdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçılarına orden və medallar təqdim edilib



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il 24 iyun tarixli sərəncamları ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət göstərmiş naxçıvanlı hərbi qulluqçuları da müxtəlif medallarla təltif edib. Naxçıvan Şəhər İcra Hakimiyyətində həmin medalların, onların vəsiqələrinin şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçılarına təqdim olunması ilə bağlı növbəti tədbir keçirilib.***

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Qeyd olunub ki, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük şücaət göstərərək şəhid olmuş Naxçıvan şəhər sakinləri – baş leytenant Sahil Məmmədov “Kəlbəcərin azad olunmasına görə”, baş leytenant İsmayıl Vəliyev “Laçının azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə”, gizir Bağır Ələkbərov “Füzulinin azad olunmasına görə”, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular Araz Məmmədov, Xansu Qurbanov, İslam Eyvazov, İbrahim İbrahimov, Seymur İbrahimov “Füzulinin azad olunmasına görə” medalları ilə təltif ediliblər. Qazi, müddətdən artıq hərbi xidmət hərbi qulluqçuları – Nurəddin Nəbiyev, Yusif Haqverdiyev “Füzulinin azad olunmasına görə”, Vətən müharibəsi iştirakçıları – mayor Ruslan Novruzov, mayor Rasim Zamanov, əsgər Şükür Novruzov “Suqovuşanın azad olunmasına görə”, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular Murad Əliyev və Mir İsmayıl Süleymanov isə “Füzulinin azad olunmasına görə” medalına layiq görülüblər.



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Anar Aqilov çıxış edib. Sonra medalların təqdimatı olub, şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

* * *

Babək rayonunda keçirilən tədbirdə əvvəlcə igid Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək bildirib ki, ötən dövr ərzində təkcə Babək rayonunda dövlətimiz tərəfindən 3 şəhid ailəsinə və 2 qaziyə mənzil, 3 qaziyə isə minik avtomobili verilib, onların tibbi müayinələri və özünüməşğulluq məsələlərinin həlli diqqətdə saxlanılıb. Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ailələri və qazilər ziyarət olunur, onların sosial qayğıları həll edilir.

Sonra “Kəlbəcərin azad olunmasına görə”, “Suqovuşanın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları və 3-cü dərəcəli “Rəşadət” ordeni şəhidlərin ailələrinə, qazilərə və müharibə iştirakçılarına təqdim olunub. Onlar göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq ediblər.

**Xəbərlər şöbəsi**

## Ailə qanunvericiliyinin aktual məsələlərinə həsr olunmuş beşgünlük təlim başa çatıb

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində tələbələr üçün “Ailə qanunvericiliyinin aktual məsələləri” mövzusunda beşgünlük təlim başa çatıb.*



Tələbələrin hüquqa dair biliklərini daha da təkmilləşdirmək, eləcə də bu sahəyə olan marağını artırmaq məqsədilə keçirilən təlimdə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri iştirak edib. Əvvəlcə tələbələrə məhkəmənin müxtəlif strukturlarında iş şəraiti, Ali Məhkəmədəki kitabxana ilə tanış olub, onları maraqlandıran suallar cavablandırılıb. Tələbələrə məhkəməyə daxil olan sənədlərin, cinayət, mülki, inzibati və sair işlərin, materialların qeydiyyatı, rəsmiləşdirilməsi, formalaşdırılması, göndərilməsi və vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında ətraflı məlumat verilib.

Növbəti gün Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşları tərəfindən tələbələrin ailə qanunvericiliyi barədə nəzəri biliklərinin təkmilləşdirilməsi istiqamətində çıxışlar edilib.

Keçirilən təlimin növbəti günündə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, kommersiya kollegiyasının sədri Əhliman Xıdırov “Ailə qanunvericiliyinin aktual məsələləri” barədə tələbələrə təlim keçib, təlimdə tələbələr ailə qanunvericiliyinin ümumi xarakteristikası, ailə mübahisələri üzrə işlərə tətbiq edilməli olan qanunvericilik aktlarının dairəsi, həmin qəbildən işlərə baxılması zamanı formalaşmış vahid məhkəmə təcrübəsi barədə məlumatlandırılıb, tələbələri maraqlandıran suallar hakim tərəfindən cavablandırılıb, mövzu ətrafında tələbələrin iştirakı ilə qarşılıqlı müzakirə aparılıb.

Sonrakı gün tələbələrin ailə qanunvericiliyinin tətbiq dairəsinə daxil olan işlər üzrə məhkəmə iclaslarında iştirakları təmin olunub.

Layihənin sonuncu günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev tələbələrlə görüşüb. O, ölkədə aparılan hüquqi islahatların tərkib hissəsi kimi məhkəmə orqanlarında çalışacaq yüksək peşəkarlığa malik, layiqli və humanist kadrların formalaşdırılmasının vacibliyini vurğulayıb. Qasım Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının gələcəyin fəal, təşəbbüskar, vətənpərvər ruhlu kadrlarının yetişdirilməsi istiqamətində atılmış əhəmiyyətli addımlardan biri olduğunu bildirib, həyata keçirilən tədbirlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Tədbirdə kommersiya kollegiyasının sədri Əhliman Xıdırov, universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekan müavini Abbas Əhmədov çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## *“Naxçıvan Muxtar Respublikasında sənayenin diversifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi”* beynəlxalq elmi konfransı keçirilib



*“Naxçıvan” Universitetində keçirilən beynəlxalq konfransın iştirakçıları əvvəlcə Heydər Əliyev Muzeyini ziyarət ediblər. Muzeydə qonaqlara ulu öndərin mənalı ömür yolu və parlaq siyasi fəaliyyətini əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib.*

Konfransı “Naxçıvan” Universitetinin rektoru Nurlana Əliyeva açaraq qonaqları salamlayıb və konfransın işinə uğurlar arzulayıb.

İqdır Universitetinin rektoru, professor Məhmət Hakkı Alma çıxış edərək bildirib ki, ölkələrarası münasibətlərin düzgün qurulmasında iqtisadiyyatın rolu danılmazdır. İqtisadi əlaqələrin genişləndirilməsi sahəsində ölkələrimiz arasındakı mühüm irəliləyişlərə diqqətçəkən rektor gələcəkdə Naxçıvanda bir çox layihələrin icrası perspektivlərindən də danışıb.

2022-ci ilin Naxçıvan Muxtar Respublikasında “Sənaye ili” elan olunduğunu diqqətə çatdıran Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elnur Mahmudov qeyd edib ki, məqsəd diyarımızda sənaye sektorunu daha da inkişaf etdirməkdir. Bunun üçün xammal ehtiyatının yaradılması qarşıda duran əsas məsələlərdəndir. Şərur Sənaye Məhəlləsinin yaradılması istiqamətində görülən işlər sənayenin davamlı inkişafında, iqtisadiyyatın modernləşməsində və innovativ iqtisadiyyatın formalaşmasında əhəmiyyətli rol oynamaqla yanaşı, sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin də bariz nümunəsidir.

Tədbirdə AMEA İqtisadiyyat İnstitutunun baş elmi işçisi Sevda Mikayılova, Qazaxıstan Respublikasının Əhməd Yəsəvi Universitetinin müəllimi, dosent Aktolkin Abubakirova müxtəlif mövzularda çıxış ediblər. Qeyd olunub ki, Naxçıvanın yeraltı və yerüstü sərvətlərinin tədqiqi onu deməyə əsas verir ki, burada sənayenin inkişafı müxtəlif istiqamətlər üzrə həyata keçirilə bilər. Burada strateji əhəmiyyətə malik sahələrin inkişaf etdirilməsi aqrar sahəyə paralel olaraq sənayenin inkişafına da təkan verir.

“Naxçıvan” Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Hüseyn Bağırsoylu bildirib ki, müasir dövrdə iqtisadiyyatın davamlı inkişafı şəraitində Naxçıvan iqtisadi rayonunda sosial-iqtisadi inkişafın prioritet istiqamətlərindən biri mövcud sənaye sahələrini diversifikasiya proseslərinə cəlb etməkdir. Təkrar istehsal prosesinin genişlənməsi və məhsulların istehsal həcminin artması əlavə iş yerlərinin yaradılmasına, iqtisadi fəal əhalinin məşğulluğunun təmin olunmasına, işsizlik səviyyəsinin aşağı düşməsinə və əməkhaqqının artmasına səbəb olur. Qeyd olunub ki, sənaye komplekslərinin yaradılmasında məqsəd müasir dövrdə müstəqil fəaliyyət göstərən, özünümaliyyələşdirən və xammal təchizatını fasiləsiz yerinə yetirən təsərrüfat subyektlərinin artırılmasını təmin etmək və ölkə iqtisadiyyatının davamlı inkişafına fayda verməkdən ibarətdir. Bu mənada, muxtar respublikada sənaye sahələrinin keyfiyyətcə yeni mərhələyə çatması rəqabətqabiliyyətliliyin artmasına imkan verəcək.

Sonda beynəlxalq konfransda fəal iştirak edənlərə “Naxçıvan” Universitetinin sertifikat və hədiyyəsi verilib.

Konfrans bölmə iclasları ilə davam edib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Yeni bina inşa olunur

Yeni quruculuq ünvanlarından biri də Culfa Rayon İcra Hakimiyyəti üçün tikilən inzibati binadır. Binanın tikintisinə ötən ilin sonlarından başlanılıb. Culfa şəhərində yerləşən və ulu öndərimiz Heydər Əliyevin adını daşıyan prospektdə inşa edilən yeni inzibati bina zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olacaq. Binanın zirzəmisində ərzaq anbarı,



qonaq otağı, qazanxana, elektrik otağı, mətbəx, bufet, sürücülər, təsərrüfat işçiləri və komendant üçün otaqlar, birinci mərtəbəsində icra başçısının müavinləri, məsləhətçilər, polis, sektor müdiri və vətəndaşların qəbulu otaqları, ikinci mərtəbəsində arxiv, şöbə müdiri, məsləhətçilər, qəbul otağı, kiçik iclas zalı, müvafiq şöbələr, üçüncü mərtəbəsində kitabxana, Memarlıq və tikinti, İctimai-siyasi humanitar məsələlər, eləcə də Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbələri üçün otaqlar nəzərdə tutulub. Dördüncü mərtəbədə Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi, Hüquq şöbəsi, İnformasiya təminatı və təhlil sektoru, aparıcı məsləhətçi otağı və iclas zalı yerləşəcək. Binanın tikintisi Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçılarına həvalə edilib.

**Alim AĞAYEV**

## Dünyaca məşhur alim, ixtiraçı Xəlil Kələntər:

### *“Azərbaycan hər zaman elm və təhsil sahəsində öz uğurları ilə seçilib. Bunu Naxçıvan Dövlət Universitetinin timsalında bir daha gördüm”*



Naxçıvan Dövlət Universitetində keçirilən görüş zamanı ali təhsil ocağının rektoru Elbrus İsayev tanınmış alimi universitetin kollektivi adından salamlayaraq onun elmi fəaliyyəti və nailiyyətləri haqqında məlumat verib. Bildirilib ki, əvvəlki və yeni nəsil monitorların yaradılmasında əvəzsiz xidmətləri olan, elektronika sahəsinə aid onlarla kitabın, çoxsaylı elmi məqalələrin müəllifi olan Xəlil Kələntər həm də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvüdür. Rektor nüfuzlu alimin 40 ilə yaxındır ki, Yaponiyada yaşamasına və fəaliyyət göstərməsinə baxmayaraq, vətəni Azərbaycanla çox sıx əlaqə saxladığını qeyd edib. Vurğulanıb ki, alimin elmi və praktik nailiyyətləri beynəlxalq elm aləmində də yüksək səviyyədə qiymətləndirilir.

Professor apardığı elmi tədqiqatlar və patentlər haqqında məruzəsini təqdim edib. Maye kristallar və onun inkişaf perspektivlərindən söz açan Xəlil Kələntər bildirib ki, LED işıqları (maye kristal displeyin arxa fon işıqları) televizor, kompüter və mobil telefonların əsas hissələrindən biridir. Bu texnologiyadan smartfonlar, mobil telefon və kompüterlərdə, həmçinin avtomobillərdə geniş istifadə olunur. O, eyni zamanda özünün müəllifi olduğu və bütün dünya ölkələrində geniş istifadə olunan “Backlight unit” və “Backlight optics” texnologiyaları barədə məlumat verib. Professor ənənəvi və müasir televizorların arxa fon işıqlarının strukturu, maye kristal ekranlar, 3D displeylər və digər ekran texnologiyaları barədə də danışıb. Həmçinin apardığı tədqiqatların nəticələrini, ixtira və patentlərini seminar iştirakçılarının diqqətinə çatdırıb.

Rektor professora xatirə plaketi və hədiyyələr təqdim edib. Görüşdə universitetdə qurulacaq Texnoparkda birgə əməkdaşlığa dair razılıq əldə olunub.

Tədbirdə müəllim və tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, 1981-ci ildən Yaponiyada yaşayan Xəlil Kələntər Naqoya və Tohoku universitetlərində elmlər doktoru, alimlik dərəcəsi alıb. Elektronika mühəndisliyi, yeni nəsil ekranların yaradılması sahəsində 100-ə yaxın patentin, yapon dilində altı kitabın, 130-dan artıq elmi məqalənin müəllifidir. Azərbaycanlı alim LCD televizor, kompüter və mobil telefonların əsas hissələrindən birinin – maye kristal displeyin arxa fon işıqlarının yaradıcısıdır. Dünyada ilk dəfə işıqla yönləndirilən mikroreflektorlu və mikrodeflektorlu optik lövhələr yaradıb. Bununla yanaşı, o, işıqla yönləndirilən mikrostrukturlu funksional optik lövhələrin ilk dizayneri, müəllifi və istehsalçısıdır. Əsərləri ingilis, yapon, Çin və Koreya dillərində dərc olunub. Yalnız Yaponiyada deyil, Amerika, Asiya və Avropada elektronika, yeni nəsil displey ekranlar sahəsində böyük mütəxəssis kimi tanınır. Həmin sahədə uzun müddət çalışdığına görə Xəlil Kələntərə müvafiq beynəlxalq konfranslarda Yaponiyanı təmsil etmək hüququ verilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

* * *



Dünyada tanınan azərbaycanlı ixtiraçı-alim, Azərbaycan diasporunun sayılıb-seçilən təmsilçilərindən olan Xəlil Kələntərin Naxçıvanla, habelə Naxçıvan Dövlət Universiteti ilə bağlı maraqlı təəssüratları ilə “Şərq qapısı” qəzetinin oxucularını tanış edirik:

– Azərbaycan və onun ayrılmaz parçası olan Naxçıvan hər bir vətəndaş üçün doğmadır, əzizdir, Azərbaycan dünya azərbaycanlılarının doğma Vətənidir. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi, azərbaycanlı olmağımla həmişə fəxr etmişəm, bunun qürurunu yaşamışam. Yaxşı xatırlayıram, gənclik illərimdə Bakının radio verilişlərinə qulaq asmağı çox sevirdim. Ana dilimizdə səslənən mahnıları xüsusi şövqlə dinləyərdim. Hətta Bakını yuxularımda da tez-tez görərdim. 1989-cu ildə xanəndə İslam Rzayev, tarzən Ramiz Quliyev və müğənni Zümrüd Məmmədova Yaponiyaya konsert verməyə gəlmişdilər. Bir ay Şincukuda mehmanxanada qaldılar. O vaxt Tokioda azərbaycanlılar yox idi. Mən onlarla görüşərək konsertlərin təşkilində yapon dilində izahat işlərinin aparılmasına kömək etdim. Hər axşam gecə saat 12-dək onlarla birgə olurdum. Qədim və zəngin Azərbaycan musiqisinin yaponlar tərəfindən qavranılmasına gücüm çatan qədər yardım etməyə çalışırdım. Düşünürdüm ki, bununla, necə deyərlər, az da olsa, vətəndaşlıq borcumu yerinə yetirirdim.

Naxçıvan Dövlət Universiteti ilə mənim ilkin tanışlığım da məhz yurduma olan bağlılığımdan irəli gəldi desəm, yanılmaram. Mənə ilk dəfə ali təhsil ocağının tələbələri üçün vebinar təşkil etməyim barədə təklif gəldikdə bunu çox böyük məmnuniyyətlə qəbul etdim. Çünki bu virtual görüşün gənclərimiz, tələbələrimiz üçün nə qədər əhəmiyyətli olduğunu yaxşı bilirdim, ilk və sonrakı görüşlərimiz uğurlu oldu. İnanıram ki, tələbələrimizlə yaxında keçiriləcək dördüncü vebinarımız da uğurlu alınacaq. Bu gün isə həmin görüşlərimizdən fərqli olaraq əyani şəkildə Naxçıvanla və Azərbaycanın tanınmış ali təhsil ocaqlarından olan Naxçıvan Dövlət Universiteti ilə tanış olduq. Bu cür prestijli təhsil ocağının fəaliyyəti, prinsipləri, habelə elm sahəsindəki yenilikçi ideyaları ilə bağlı ətraflı məlumat aldım. Universitetin rektoru Elbrus İsayevlə olan səmimi görüşümüz zamanı öyrəndim ki, Naxçıvan Dövlət Universiteti əcnəbi tələbələrin sayına görə ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqları arasında ilk sıralardadır. Belə ki, təhsil ocağında Cənubi Koreya, Pakistan, Türkiyə, Özbəkistan, Nigeriya və bir neçə ölkənin vətəndaşları müvafiq ixtisaslar üzrə təhsil alır. Ən böyük üstünlüyü isə qardaş Türkiyə Respublikasının tələbə-gəncləri təşkil edir. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetinin Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası və digər ölkələrin universitetləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Hesab edirəm ki, bu, dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin ən gözəl nəticəsidir.

Bununla belə məlumat verildi ki, universitetin tələbə təşkilatları gənclərimizin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşünün, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf edilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkan yaradır. İnanıram ki, belə ali təhsil ocaqlarında yetişən gənclərimiz gələcəyin tanınmış alimləri, ziyalıları olacaqlar.

Müsahibim Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü kimi Azərbaycan və Yaponiya dövlətləri arasındakı qarşılıqlı münasibətlərdən də danışdı:

– Qeyd etdiyimiz kimi, Azərbaycan hər zaman dünyanın inkişaf etmiş ölkələri ilə qarşılıqlı əlaqələrini sağlam təməllər əsasında qoruyub və inkişaf etdirib. Azərbaycanın xarici ölkələrlə əlaqələrinin genişlənməsində, bütövlükdə, dünya birliyinə inteqrasiyasında, beynəlxalq aləmdə təbliğində diaspor təşkilatlarının da üzərinə müəyyən öhdəliklər düşür. Məlumdur ki, bu gün Azərbaycan rəhbərliyinin yürütdüyü uğurlu xarici siyasət sayəsində beynəlxalq və regional problemlərin həllində ölkənin rolu getdikcə artır. Doğma yurdumuzun, Azərbaycanın sözügedən sahələrdə əldə etdiyi uğurlar Azərbaycan-Yaponiya münasibətlərində də öz əksini taparaq, öz layiqli nəticələrini göstərir. Bu məqamda bir tarixi faktı dilə gətirmək lazımdır ki, Yaponiya Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən olub. Təbii ki, bu hal təsadüfi deyildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hər bir sahədə əldə etdiyi əvəzsiz uğurlar Azərbaycanın bu istiqamətdəki gələcək taleyinə də öz müsbət təsirini göstərmişdi. Bu məqsədyönlü tədbirlərin nəticəsində dünyanın böyük siyasi, iqtisadi gücə malik ölkələrindən sayılan, dünya güclərinin bir araya gəldiyi “Səkkizlər” qrupuna daxil olan Yaponiyanın 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıması haqqında bəyanatla çıxış etməsi, hələ o zamanlar gənc respublika olan Azərbaycan dövlətinin böyük qələbəsi idi. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanla Yaponiya arasındakı münasibətlərin inkişafı xüsusilə daha ardıcıl və səmərəli xarakter aldı. Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun Azərbaycanın çətin günlərində ölkəmizə verdiyi dəstək əlaqələrin formalaşmasında mühüm rol oynadı. Hətta 90-cı illərin sonunda Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun nümayəndə heyətini qəbul edərkən Heydər Əliyev Azərbaycan dövlətinin Yaponiya ilə əməkdaşlığa xüsusi diqqət verdiyini, iki ölkə arasında əməkdaşlığın inkişafına maksimum səy göstərəcəyini bildirmişdir. Bu gün həmin tarixi əlaqələrin bəhrəsini hər iki müstəqil dövlətin timsalında aydın şəkildə görürük. Bununla belə, sevinirik ki, adıçəkilən əməkdaşlıqlar təhsil sahəsində də özünü sürətlə doğruldur. Bu gün Yaponiyada kifayət qədər azərbaycanlı tələbələr təhsil alır, eləcə də Azərbaycanda və Naxçıvanda bu yöndə olan xarici tələbələrin üstünlüyünü görürük. Biz çalışdığımız qədər gənc həmyerlilərimizi diqqətdə saxlayır, onlara əlimizdən gəldiyi qədər qayğı göstəririk. Bu bizim vətəndaşlıq borcumuzdur. Savadlı gənclərimizin hər biri doğma yurdumuzun gələcək təmsilçiləri, bizlərin isə layiqli davamçılarıdır. Hətta bu istiqamətdə son olaraq bir reallığı da sizin diqqətinizə çatdırım ki, Yaponiya- Azərbaycan Dostluq Cəmiyyəti xaricdə yaşayan soydaşlarımızın hər zaman yanında olmaqla yanaşı, onların fərdi problemlərinin həllində yaxından iştirak edir, bizlər də əlimizdən gəldiyi qədər Azərbaycanın təbliği, ölkəmizlə bağlı həqiqətlərin daha geniş yayılması işində üzərimizə düşən bütün vəzifələri ən gözəl şəkildə yerinə yetirməyə səy göstəririk.

Gənclərimizə isə tövsiyə edərdim ki, Vətəni sevsinlər. Harada olmalarından asılı olmayaraq, dərk etsinlər ki, onlar öz yurdlarının təmsilçiləridir. Mən artıq 42 ildir ki, xarici ölkədə yaşayıram, amma Vətən eşqini hər zaman qəlbimdə daşımışam və daşıyacağam. Gənclərimiz bacardıqca çox öyrənsinlər, oxusunlar, savad sahibi olsunlar. Bu gün parta arxasında əyləşən hər bir gənc sabahın böyük bir dahisi olacaqdır. İnansınlar ki, insan yalnız zəhməti qədər həyatdan mükafat alır. Nə qədər çox zəhmət çəkib, elm yolunda çalışsalar, bir o qədər yaxşı nəticələr qazanacaqlar. Buna əmin olsunlar.

**Məcid RƏŞADƏTOĞLU**

## Ramazan bayramı birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin rəmzidir



***Ramazan bayramının xalqımızın qəlbində ayrıca bir yeri var. Bu ayda müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. İslam dininə görə, oruc tutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Müqəddəs kitabımız “Qurani-Kərim”in nazil olduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir.***

Orucluğun başa çatdığı gün “Ramazan bayramı” kimi qeyd olunur. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin məzarlarını ziyarətə gedir, ruhlarına dualar oxuyurlar. Bayram günləri həm də küsülülər barışar, ailə üzvlərinə bayramlıqlar hədiyyə edilər. Bir ay boyunca oruc tutmaq hər bir müsəlman üçün vacib olduğu kimi, Ramazan bayramında da imkanlıların fitrə vermələri vacibdir. Peyğəmbərimizin hədislərindən birində deyilir ki, Allah bəndəsindən tələb olunan sədəqə verilməyənədək Ramazan ayında tutulmuş oruc yerlə göy arasında asılı qalar. Həddi-büluğa çatmış hər bir müsəlmana oruc vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır. Kəffarə bir gün bilərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır. Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Ramazan bərabərlik ayıdır. Bu ay varlıdan kasıba kimi hamı Allahın bəndəsi olduğunu anlayır. Çünki iftar vaxtı gəlməyənədək suyu belə, içə bilməyən insan bu vəsilə ilə Yaradanın böyüklüyünü dərk edib ona şükür edir. Oruc tutmaq həm də insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insan orqanizmi orucluq vaxtı dincəldikdən sonra funksiyasını daha rahat yerinə yetirir. Müasir tibb elmində də oruc tutmağın faydaları barədə xeyli məlumatlar var.

Ramazan bayramı maddi dünyanın deyil, mənəvi aləmin təntənəsi, coşqusudur. Bütün fəsillərin, ayların ruhunu və onlardan süzülüb gələn mənaları bizə təqdim edən Ramazan günlərini bu il də böyük sevinclə qarşılayırıq. Əlbəttə, bayramda ən birinci valideynlərimizi təbrik etməli, qulluqlarında durmaqla onlara əsl bayram sevinci yaşatmağa çalışmalıyıq. Allah-Taala “Qurani-Kərim”də də valideynlərə hörmət etməyi buyurub. Xüsusilə bayram günlərində ailə üzvlərini sevindirmək, onlara qarşı səmimi məhəbbət nümayiş etdirmək bu bayramın şərtlərindəndir.

Müqəddəs Ramazan bayramı hər il dünya müsəlmanları tərəfindən böyük təntənə ilə qeyd olunur. Bu bayram bütün İslam aləminin həmrəylik və qardaşlıq timsalına çevrilib. Bayram günlərində insanlar arasında Allaha inam, Vətənə, torpağa, xalqa bağlılıq hissindən doğan bir nikbinlik əhvali-ruhiyyəsi yaşanır.

Tarixboyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı da dünya müsəlmanlarının mübarək Ramazan bayramını könül xoşluğu ilə qeyd edir. Bu bayram günlərində xalqımız respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın unudulmaz xatirəsini ehtiramla yad edir, hər yerdə şəhidlərimizin ruhuna dualar oxunur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Ramazan bayramı dövlət səviyyəsində qeyd olunmağa başlanıb. ***“Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır”***, – deyən ulu öndərimiz xalqımıza Ramazan bayramının böyük coşqu və sevinclə qeyd olunması kimi müqəddəs bir ənənəni miras qoyub. Bu ənənə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda din-dövlət münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət göstərildiyini bildirərək deyib: ***“Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır... Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu bizim böyük sərvətimizdir”.***

Ramazan bayramı, həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir. Məhz bu birlik, həmrəylik dövlətimizin daha da güclənməsini, düşmən tapdağındakı torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi. Təəssüflə qeyd etməliyik ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə edilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin bu ünvanlarda olması, həmin obyektlərin yenidən qurularaq dindarların ixtiyarına verilməsi ilə bağlı tapşırıqları hər birimizi ürəkdən sevindirir. Bu, ölkəmizdə həm dini dəyərlərimizə, həm də hər bir müsəlmana göstərilən ən böyük qayğıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikdə deyilir: ***“Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynamışdır. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, haqq işi uğrunda mübarizədə qazandığımız şanlı Zəfərlə azad edilmiş dədə-baba yurdlarımızda həyat yenidən dirçəldilir, tarixi-mədəni irsimiz, ibadət yerlərimiz bərpa olunur, məscidlərimizdən azan sədaları yüksəlir. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman şəhidlərimizin ölməz xatirəsini bu mübarək bayram günlərində bir daha ehtiramla yad edir, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə cansağlığı diləyirəm”.***

Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız ən yüksək səviyyədə qeyd edilir. Yeni məscidlər tikilir, mövcud olanlar müasir standartlar əsasında təmir və ya bərpa edilir, müqəddəs yerlərə ziyarətlər təşkil olunur. Müstəqillik illərində muxtar respublikada 169 məscid tikilib və ya yenidən qurularaq dindarların ixtiyarına verilib. Nuh Peyğəmbərin türbəsi, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi və 3 imamzadə bərpa edilib. Hazırda muxtar respublikada 214 məscid vardır. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib.

Muxtar respublikada Ramazan ayı və orucluq mərasimləri hər il mənəvi dəyərlərimizə uyğun şəkildə keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“İnsan mənəviyyatının saflaşması, əxlaqi dəyərlərin bərqərar olması işinə yönəldilmiş hər bir fəaliyyət yüksək qiymətə layiqdir. Muxtar respublikamızda da dini və mənəvi dəyərlərin qorunub yaşadılmasına, İslamın müqəddəs ayin və bayramlarının qeyd edilməsinə xüsusi diqqət yetirilir”.*** Cari il mart ayının 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirə də ölkəmizin ayrılmaz parçası olan Naxçıvanda dini-mənəvi dəyərlərə göstərilən ehtiramın daha bir ifadəsi oldu. Aprelin 21-də müqəddəs Ramazan ayı münasibətilə iftar paylarının verilməsi də muxtar respublikada mənəvi dəyərlərimizin yaşadılmasına xidmət edir.

Oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrlərindən birini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da müəyyən fayda və hikmətləri vardır. 653-cü ildə İslam dininin könüllü qəbul edildiyi təktanrıçılığın mərkəzlərindən biri olan qədim diyarımız Naxçıvanda sağlam dini etiqad və zəngin mənəvi dəyərlər sistemi formalaşdırılıb. XV əsrdə tərtib olunmuş “Dünyanın İslam tarixi xəritəsi”ndə də Naxçıvan İslamın ən güclü dayaqlarından biri kimi göstərilib. Ali Məclis Sədrinin dediyi kimi: ***“Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır... O cəmiyyət sağlamdır ki, orada mənəvi dəyərlərə sahiblik vardır”.***

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Allah orucunuzu və dualarınızı qəbul etsin! Ramazan Bayramınız Mübarək olsun!

**“Şərq qapısı”**

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən elan edilmiş “Mütaliə aylığı”nın yekunu ilə bağlı aprelin 29-da Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində tədbir keçirilib.*

## “Mütaliə aylığı”na yekun vurulub



Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, şagirdlərin kütləvi olaraq mütaliəyə cəlb edilməsi üçün 2019-cu ildən etibarən Təhsil Nazirliyi tərəfindən aprel ayı muxtar respublikanın ümumtəhsil məktəblərində “Mütaliə aylığı” elan edilir. Cari tədris ili üçün təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq aprel ayı ərzində müxtəlif tədbirlər keçirilib. Bu tədbirlərə, ümumilikdə, 20 mindən çox şagird cəlb olunub. Bununla yanaşı, ümumtəhsil məktəblərində kitabxanaların fəaliyyətinin gücləndirilməsi məqsədilə kitabxanaçılar üçün kurslar da təşkil edilib.

Təhsil naziri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamının yeniyetmə və gənclərin Azərbaycançılıq ideologiyasına bağlı, Vətənə, xalqa sədaqət ruhunda tərbiyəsində mühüm rol oynadığını qeyd edərək göstərdiyi diqqət və qayğıya görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Nazir “Mütaliə aylığı” çərçivəsində təşkil edilən müsabiqələrin qaliblərini təbrik edib.

Tədbirdə Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Dürdanə Quliyeva, Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Əmir İmanov çıxış edərək muxtar respublikada məktəblilərin təhsili üçün yaradılan nümunəvi tədris şəraitindən və mütaliə aylığının əhəmiyyətindən danışıblar.

Tədbirdə “Mütaliə aylığı” çərçivəsində keçirilən müsabiqələrin qaliblərinə, şeir, hekayə yazan, kitabı çap olunan şagirdlərə diplomlar təqdim olunub.

Sonra “Mütaliə aylığı” çərçivəsində keçirilən tədbirlərdən ibarət videoçarxa baxış olub. Tədbir məktəblilərin iştirakı ilə təşkil olunan bədii hissə ilə davam edib.

Sonra tədbir iştirakçıları kitab sərgisinə baxıblar.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan qarnizonu qoşunlarında komandir hazırlığı məşğələsi keçirilib



Hərbi potensialımızın və hərbi kadrların təkmilləşdirilməsinin nəticəsidir ki, ordumuz Vətən müharibəsini qələbə ilə başa vurdu. Aparılan əməliyyatlarda 44 günə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikalarından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunun bir daha sübut edir. Bu qələbənin qazanılmasında illərdir, orduda keçirilən təlimlərin də böyük rolu oldu. Təbii ki, təcrübə əsas amillərdən biridir. Şəxsi heyət keçirilən məşğələlər və təşkil olunan təlimlər zamanı qazanılan təcrübə, nəzəri və praktik biliklərdən qarşıya qoyulan tapşırıqların icrasında uğurla istifadə edildi. Peşəsinin sirlərinə dərindən yiyələnən hərbçilərimiz qazanılan zəfərlə təlimlər zamanı tökülən tərin haqqını verdilər.

Naxçıvan Qarnizonu Qoşunlarında qələbədən sonra da bölmələrdə döyüş hazırlığının artırılması və Vətən müharibəsində qazanılan təcrübənin aşılanması istiqamətində mütəmadi olaraq məşğələ və təlimlər keçirilir.

“Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı”na əsasən keçirilən növbəti komandir hazırlığı məşğələsində hərbi hissə komandirləri və müavinləri iştirak edib.

Praktik və göstərici dərslərə üstünlük verildiyi məşğələlərdə manevr zolağının dəf edilməsi və antiterror əməliyyatı zamanı xüsusi təyinatlı bölmələrin taktiki fəaliyyətləri nümayiş olunub.

Komandir heyəti “Mövqelərin mühəndis cəhətdən hazırlanması”, “Partlayan və partlamayan maneələrin qurulması”, “Rabitə qovşağının ərazidə açılması və əməliyyat-texniki xidmətin təşkili”, “Artilleriya bölmələrinin fəaliyyəti” mövzularında praktik dərslərdə iştirak edib.

Komandir hazırlığında zabitlərin fiziki hazırlıq və müxtəlif ixtisaslar üzrə bilik və bacarıq səviyyələri yoxlanılıb.

Yekunda bölmələrdə şəxsi heyətin döyüş hazırlığının artırılması üçün taktiki təlimlərin və ictimai-siyasi hazırlıq məşğələlərinin keçirilməsi üzrə komandir heyətinə müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

## Rabitə infrastrukturunda təmir-bərpa işləri görülür



Muxtar respublikada rabitə və internet xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində görülən işlər hazırda Şərur, Culfa və Ordubad rayonlarını da əhatə edib. Təmir işləri zamanı Şərur rayonunun Qorçulu, Mahmudkənd, Qarxun və Muğancıq-Mehrab kəndlərində, ümumilikdə, 28 ədəd dəmir dirək basdırılaraq rabitə xətləri texniki normalara uyğun vəziyyətə gətirilib, müxtəliftutumlu yeni kabellər çəkilib.

Culfa rayonunda da bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilməkdədir. Belə ki, Culfa şəhərində, rayonun Yaycı, Camaldın, Kırna, Bənəniyar, Saltaq, Göydərə, Əlincə, Milax və Ləkətağ kəndlərində sakinlərin ən müasir rabitə və internet xidmətlərindən yararlanması məqsədilə istismar müddəti ərzində sıradan çıxmış müxtəlifölçülü rabitə xətlərinin yenilənməsi işləri görülüb.

Ordubad rayonunda da həyata keçirilən tədbirlər diqqəti cəlb edir. Rayon mərkəzində və kəndlərdə rabitə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması üçün uzun müddət istismar olunan və müxtəlif səbəbdən yararsız vəziyyətə düşən taxta rabitə dirəkləri metal dirəklərlə əvəz olunub. Rayonun Sabirkənd, Dəstə, Kələntər Dizə və Qoşadizə kəndlərində 15 ədəd dəmir dirək basdırılıb, Ordubad şəhərində və Tivi kəndində isə 350 metr müxtəliftutumlu yeni kabellər çəkilərək rabitə xətləri texniki normalara uyğun vəziyyətə gətirilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar***
***Nazirliyinin mətbuat xidməti***

# Tarixi mübarizələrin bədii təcəssümündən yaranan sənət məbədi – “milli” statuslu Naxçıvan Dövlət Musiqili Dram Teatrı



***100 il əvvəl, 1922-ci ildə “dövlət” statusu alan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına bu günlərdə “milli” statusunun verilməsi bütün teatrsevərlərin sevincinə səbəb oldu. Muxtar respublikada mədəniyyət və incəsənətin inkişafına böyük diqqət və qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu təşəbbüsü Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafında, mədəni zövqümüzün formalaşmasında mühüm rolu olan bu qədim mədəniyyət məbədinin milli mədəniyyətin təbliği sahəsində çoxillik səmərəli fəaliyyətinə verilən ən yüksək qiymətdir. Teatrın kollektivi, bütövlükdə isə Naxçıvan mədəniyyəti üçün əlamətdar olan bu hadisə mədəniyyət sahəsinə böyük rəğbətin parlaq ifadəsinə çevrildi. Teatrın işçilərinin əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılacağı isə kollektivə ikiqat bayram sevinci bəxş etdi.***

Bu münasibətlə biz də “Şərq qapısı” qəzetinin kollektivi adından Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyevlə görüşüb onun timsalında kollektivi təbrik edərək zəngin tarixə malik olan Naxçıvan teatrının keçmişdən bu günə keçdiyi şərəfli yola nəzər salmaq istədik.

Öyrəndik ki, 1883-cü il mayın 11-də Naxçıvanda dövrünün maarifpərvər ziyalısı Hacı Nəcəf Zeynalovun şəhərin məşhur Zaviyə məhəlləsindəki evində Mirzə Fətəli Axundzadənin “Müsyo Jordan və Dərviş Məstəli şah” komediyası səhnələşdirilib. Bu ilk tamaşa ilə Azərbaycan teatrının bir qolu olan Naxçıvan teatrının əsası qoyulub. Daha sonra M.F.Axundzadənin “Molla İbrahimxəlil kimyagər”, “Lənkəran xanının vəziri”, “Hacı Qara” komediyaları, N.Vəzirovun “Müsibəti-Fəxrəddin”, Ə.Haqverdiyevin “Dağılan tifaq”, N.Nərimanovun “Nadir şah” və başqa əsərləri tamaşaya qoyulub. Naxçıvan teatrı yarandığı dövrdən maarifçilik mövqeyində çıxış edib, Azərbaycan teatr sənətinin qüdrətli nümayəndələri ilə əlaqələr saxlayıb, öz həmkarlarının mənəvi dəstəyini daim hiss edib. Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Qurbanəli Şərifzadə, Məhəmməd Tağı Sidqi, Əliqulu Qəmküsar və başqa görkəmli ziyalılarımız teatrın inkişafı sahəsində sərt sınaqlara dözərək əsl fədakarlıq göstəriblər. Naxçıvan teatrının yarandığı illərdə bu sənət ocağının təşəkkülü üçün Bakıdan Naxçıvana gələn qüdrətli sənətkarların Naxçıvan teatrının aktyorları ilə birlikdə tamaşalar göstərməsi, sənət dostlarına mənəvi dəstək olması teatrımızın peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

1922-ci ildən Dövlət Dram Teatrı kimi fəaliyyət göstərən teatr həm romantik, həm də realist istiqamətdə inkişaf edib. Həmin dövrdən başlayaraq teatrın repertuarında dünya klassiklərinin əsərləri, həmçinin musiqili əsərlər əhəmiyyətli yer tutur. Bu teatrda istedadlı aktyor və rejissorların bir neçə nəsli yetişib. 1965-ci ildə teatra görkəmli ədib Cəlil Məmmədquluzadənin adı verilib.

Naxçıvan teatrının istər tarixinin öyrənilməsində, istər aktyor heyətinin təqdimatında, istər rejissor sənətinin araşdırılmasında, həmçinin digər sahələri ilə bağlı ardıcıl axtarışların ortaya qoyulmasında Əli Qəhrəmanovun fədakar xidmətləri var. Bu haqda söhbət açan Rza Xudiyev dedi ki, alimin fəaliyyəti dövründə “Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı”, “Naxçıvan teatrı: intibah yollarında (1883-1920)”, “Naxçıvan teatrı müstəqillik illərində – 1991-2008”, “Naxçıvan teatrının salnaməsi”, “Hüseyn Cavid və Naxçıvan teatrı”, “Naxçıvan teatrına dair tədqiqlər”, “Təbriz teatrı və Böyükxan Naxçıvanski”, “Naxçıvan teatrında rejissor sənəti” monoqrafiya və kitabları nəşr olunub. Həmçinin 740 səhifəlik “Naxçıvan teatrının salnaməsi” adlı ensiklopedik nəşrin ərsəyə gəlməsində Əli müəllimin böyük xidmətləri var.





Teatra göstərilən davamlı və hərtərəfli qayğıdan bəhs edən Xalq artisti vurğuladı ki, Azərbaycan Respublikası Prezidentinin “Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi haqqında” 2008-ci il 31 yanvar tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi haqqında” 2008-ci il 6 fevral tarixli Sərəncamı ilə teatrın 125 illik yubileyi geniş şəkildə qeyd olunub.

Rza Xudiyev onu da qeyd etdi ki, müstəqillik illərindən başlayaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektiv milli dəyərlərimizin peşəkar təbliğatçısına çevrilib. Naxçıvan teatrı Ankara, İstanbul, Bursa, Trabzon, Qars, Ərzurum, İqdır, Dənizli, Tarsus, İran İslam Respublikasının Təbriz, Maku və başqa şəhərlərində qastrol səfərlərində olub, göstərdiyi tamaşalarla dost və qonşu ölkələrin teatrsevərlərinin rəğbətini qazanıb. Hətta doğma sənət ocağının tamaşaçı həsrəti çəkməli olduğu pandemiya dövründə belə, teatrda günün tələblərinə cavab verən müasir tamaşalar hazırlanması diqqət mərkəzində saxlanılıb, bir neçə tamaşa Naxçıvan televiziyası vasitəsilə teatrsevərlərə onlayn təqdim olunub. Ötən ilin noyabr ayında teatrda dünya şöhrətli rus yazıçısı Nikolay Vasilyeviç Qoqolun “Müfəttiş” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi oldu. Tamaşanı izləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşdü, tamaşanın uğurlu təqdimatına görə kollektivimizə təşəkkür etdi. Həmin gün kollektivimiz üçün ən yaddaqalan və əlamətdar gün oldu.

Bu il isə kollektiv Azərbaycan Respublikasında “Şuşa ili” elan edilməsi ilə əlaqədar Türkiyənin Ərzurum Atatürk Universitetində Şuşa şəhərinin 270 illiyinə həsr olunmuş tədbirdə iştirak etdi. Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyası kollektivlərinin ifasında rəngarəng musiqi proqramı ilə yanaşı, Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarının təqdim etdiyi çex yazıçısı Karel Çapekin “Ana” əsəri əsasında hazırlanan eyniadlı tamaşa alqışlarla qarşılandı. Bu çıxış da teatr kollektivinin böyük uğurlarından biri oldu.

Xalq artisti Naxçıvan Dövlət Musiqili Dram Teatrının müstəqillik illərində tamaşaya qoyulan dramların üslub, struktur və janr müxtəlifliyindən də söhbət açdı. Dedi ki, “Atabəylər”, “Pompeyin Qafqaza yürüşü”, “Hökmdar və qızı”, “Nadir şah”, “Şeyx Sənan”, “Xəyyam”, “Qönçəbəyimin nəğməsi”, “Mirzə Cəlil taleyi”, “Araz sahilində doğan Günəş”, “Ağa Məhəmməd şah Qacar”, “Əlincə qalası”, “Koroğlunun Çənlibelə qayıdışı”, “Qurtuluş dastanı”, “Ah Paris, Paris!..”, “Arılar arasında”, “Göy quş”, “Qılınc və qələm”, “Əli və Nino”, “Burla xatun”, “Teleskop” kimi üslub, struktur, janr müxtəlifliyi ilə seçilən tamaşalar teatrın yaradıcılıq axtarışlarının nəticəsidir. Teatrın səhnəsində bu il də tamaşaçıları maraqlı repertuarımızla qarşılayırıq. Tanınmış çex yazıçı Karel Çapekin “Ana” tamaşası müharibənin bəşəriyyəti düçar etdiyi bəlalardan bəhs edən və faşizmi tənqid məqsədilə yazılmış, gənclərə vətənpərvərlik, sülh və xeyirxahlıq motivlərində önəmli mesajlar verən əsər günümüzün aktuallığını əks etdirən mövzu kimi diqqəti cəlb edir.

Muxtar respublikada teatr və incəsənət sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə də xüsusi əhəmiyyət verildiyini söyləyən Xalq artisti bildirdi ki, 2011-ci ildə Naxçıvan Dövlət Universitetində Teatr və mədəniyyətşünaslıq kafedrasının və Aktyor sənəti ixtisasının fəaliyyətə başlaması ixtisaslı kadrlara olan təlabatın ödənilməsi probleminin həll edilməsində mühüm əhəmiyyət kəsb edir. Bunun nəticəsidir ki, bu gün Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində çox sayda gənc rejissorlar, gənc aktyorlar yetişir.

Rza Xudiyev mədəniyyət sahəsində fəaliyyət göstərənlərə, xüsusilə də teatr işçilərinə dövlət qayğısından da danışdı: – Bu gün muxtar respublikada teatr sənətinin inkişafında xidmətləri olan insanların əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlara layiq görülüblər. Bu diqqət və qayğını Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı heyəti də daim öz üzərində hiss edib. Bu il isə bu qayğının ən gözəl ifadəsini – teatrımıza verilən yüksək statusun sevincini yaşadıq. Bu, teatrın tarixində çox əlamətdar hadisədir. 139 yaşlı Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” statusunun verilməsi dövlətimizin mədəniyyətimizə göstərdiyi böyük qayğının ifadəsidir. Teatrımıza yeni statusun verilməsi üzərimizə böyük məsuliyyət qoyur. Göstərilən etimada görə dövlətimizə minnətdarlığımızı bildirir, teatrımızın inkişafı üçün səylərimizi əsirgəməyəcəyimizə söz veririk. Bu qayğıya cavab olaraq biz də daim çalışacağıq ki, gənclərimizi həm vətənpərvər, həm də gələcəyin istedadlı sənət adamları kimi yetişdirək.

...“Qayıdış” adlı sənədli televiziya filmində ***“13-14-15 yaşlarında Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İ.Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim.Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam. Mən həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var”***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyevin böyük məhəbbət bəslədiyi Naxçıvan Dövlət Musiqili Dram Teatrına bundan sonrakı fəaliyyətində uğurlar diləyir, Yaxın Şərqin qocaman sənət ocaqlarından biri olan bu mədəniyyət məbədinin yaradıcı heyətini “milli” statusunun təqdim olunması münasibətilə təbrik edirik.

**✍ Gülcamal TAHİROVA**

## Profilaktik tədbirlər davam edir

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq muxtar respublikanın orta ümumtəhsil məktəblərində ilkin vərəm intoksikasiyasının erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb olunması üçün I-VI sinif şagirdləri arasında aprel ayının 1-dən aparılan kütləvi tuberkulin test sınaqları başa çatıb. Sınaqların mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə ərazi prinsipi üzrə bir həkim, iki tibb işçisindən ibarət xüsusi briqadalar yaradılıb, I-VI siniflərdə təhsil alan 14 min 675 şagird tuberkulin testinə cəlb edilib.



Qeyd edək ki, uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Odur ki, əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.

* * *

Muxtar respublika ərazisində IX-XI sinif şagirdlərinin profilaktik flüoroqrafik müayinələri davam edir.

Bu tədbirin Kəngərli rayonunda da mütəşəkkil keçirilməsi üçün kənd məktəblərində müayinələrə cəlb ediləcək uşaqların siyahıları tərtib olunub. Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən aparılan növbəti profilaktik flüoroqrafik müayinələr rayonun Qıvraq qəsəbə tam orta məktəbini əhatə edib. Məktəbin 38 şagirdi, 4 müəllimi, 1 texniki işçisi olmaqla, 43 nəfər flüoroqrafiya müayinəsindən keçirilib. Xəstəlik halları aşkar edilməyib.



* * *



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Gigiyena və Epidemiologiya Mərkəzinin, Dövlət Baytarlıq Xidmətinin, eləcə də digər idarə və müəssisələrin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında viruslara yoluxmanın qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə dezinfeksiya tədbirlərinin növbəti mərhələsi həyata keçirilib. Yanvarın 5-dən aprelin 15-dək muxtar respublikada 8315 obyektdə 3 milyon 317 min 520 kvadratmetr dezinfeksiya işləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Ordubad rayonu, Qoşadizə bələdiyyəsinə məxsus olan künc ştampı itdiyindən etibarsız sayılır.

***

Hüseynova Arifə Tahar qızının adına olan AN-007683 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Əliyev Ramil Ələddin oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusunun 0049993 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Bağırov Nuran Vüsal oğlunun adına olan zabitin MN-0047634 seriya nömrəli şəxsi vəsiqəsi, XO-286/30.03.2022-ci il tarixli məzuniyyət bileti və sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 368